# TARİX VƏ SİYASİ ELMLƏR

**UOT 327**

## POSTSOVET MƏRKƏZİ ASİYA REGİONU VƏ AZƏRBAYCAN

**Rauf QARAYEV***

***Aparıcı sözlər:*** *Mərkəzi Asiya, Azərbaycan, region, əməkdaşlıq, dəhliz, fayda, təhlükəsizlik.*

**Giriş**

Postsovet Mərkəzi Asiya regionu bir sıra müəyyən amillərdən və obyektiv səbəblərdən Azərbaycan üçün vacib əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Mərkəzi Asiya regionu və bu regionda olan müstəqil dövlətlərlə münasibətlərin qurulması və inkişafı, belə inkişafın strategiyası və taktikası, bu prosesdə baş verən qanunauyğunluqların elmi cəhətdən müəyyən edilməsi və nəticədə müəyyən təkliflərin və tövsiyələrin irəli sürülməsi Azərbaycan ictimai elminin qarşısında duran mühüm vəzifələrdən biridir (17, s.65). Bu region, yəni postsovet Mərkəzi Asiya regionu, bizim ölkənin birbaşa yaxınlığında, demək olar ki, qonşuluğunda yerləşir və Azərbaycanla bir çox sahələrdə sıx əlaqələrə malikdir.

Azərbaycan Mərkəzi Asiya regionunun Qazaxıstan və Türkmənistan kimi ölkələrilə Xəzər dənizi üzrə həmsərhəddir. 12 avqust 2018-ci ildə Beşinci Xəzər Sammiti çərçivəsində Xəzər dənizinin sahilində yerləşən Qazaxıstanın Aktau şəhərində Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistan Respublikası tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın müddəalarına müvafiq olaraq (3), Xəzər dənizi tərəflərin ümumi istifadəsində qalır, lakin onun dibi və təki qonşu dövlətlər arasında beynəlxalq hüquq əsasında razılaşmalara əsasən (belə razılaşmalar bu dövlətlər arasında beynəlxalq saziş və müqavilələrlə rəsmiləşdirilir), sahələrə bölünür (6).

Belə növ razılaşma (saziş şəklində) Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2001-ci il noyabrın 29-da imzalanmışdır ("Xəzər dənizinin dibinin bölünməsi haqqında"). Bu sazişə əsasən, tərəflər arasında Xəzər dənizinin dibi və onun yer təki sahil xətti və adalardakı çıxış bazis nöqtələrdən bərabər uzaqlıq əsasında çəkilən orta xətt üzrə bölünür. Çıxış bazis nöqtələrinin koordinatları Baltik hündürlük sistemi üzrə mənfi 28 metrə bərabər olan Xəzər dənizinin çoxillik orta səviyyəsi əsasında müəyyən olunur (1). Bu sazişə 27 fevral 2003-cü ildə Protokol imzalanmışdır. Bu sənədə əsasən, Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibi və təkinin bölməsi xətlərin kəsişən çıxışında yerləşən ortaq bölgü xəttinin başlanğıc nöqtəsi 42°33',6 şimal en dairəsi və 49°53',3 şərq uzunluq dairəsi koordinatları olan nöqtədir. Ortaq bölgü xəttinin son nöqtəsi isə 41°32',4 şimal en dairəsi və 50°56',6 şərq uzunluq dairəsi koordinatlarındakı nöqtədir.

Oxşar saziş Rusiya ilə də bağlanmışdır. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 23 sentyabr 2002-ci ildə Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında saziş imzalanmışdır (bu saziş 4 aprel 2003-cü ildən qüvvəyə minmişdir (11). Bu sazişin 1-ci maddəsinə əsasən, tərəflər arasında Xəzər dənizinin dibi və təki nöqtələrin bərabər uzaqlıqda olması və tərəflərin razılığı üzrə modifikasiya olunması nəzərə alınaraq aparılan orta xətt metodu əsasında və həmçinin ümumtanınmış beynəlxalq hüquq prinsipləri və Xəzərdə formalaşmış praktika nəzərə alınmaqla sərhədləşdirilir (bölünür). Həmçinin bu sazişlə mineral ehtiyatlara və dəniz dibinin təkinin istifadəsi ilə əlaqədar digər hüquqauyğun təsərrüfat-iqtisadi fəaliyyətə münasibətdə suveren hüquqların həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xəttinin keçdiyi coğrafi koordinatlar müəyyən edilir.

* *AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, h.ü.f.d., dosent*

Belə bölgü xəttinin başlanğıc nöqtəsi 1979-cu ilin nəşri olan 1:200000 miqyaslı topoqrafik xəritə üzrə müəyyən olunmuş 41°50’,5 şimal en dairəsi və 48°35’,6 şərq uzunluq dairəsi koordinatları ilə Azərbaycan Respublikası və Rusiya Federasiyasının dövlət sərhədinin Xəzər dənizinin suyu ilə kəsişən çıxışında yerləşən nöqtədir. Bölgü xəttinin son nöqtəsi isə 42°33’,6 şimal en dairəsi və 49°53’,3 şərq uzunluq dairəsi koordinatlarındakı nöqtədir (11).

Onu da nəzərə almaq lazımdır ki, buna oxşar saziş daha əvvəl 6 iyul 1998-ci ildə Rusiya Federasiyası və Qazaxıstan Respublikası arasında bağlanmışdır (Yerin təkinə suveren hüquqların həyata keçirilməsi məqsədilə Xəzər dənizinin Şimal hissəsi dibinin sərhədləşdirilməsi (bölünməsi) haqqında saziş). Bu sazişə 13 may 2002-ci il tarixli Protokol (7) və 10 oktyabr 2015-ci il tarixli Protokol (8) əlavə edilmişdir. Bununla bərabər, 14 may 2003-cü ildə Xəzər dənizi dibinin həmsərhəd sahələrinin bölünməsi xətlərinin birləşməsi nöqtəsi haqqında Azərbaycan Respublikası, Rusiya Federasiyası və Qazaxıstan Respublikası arasında üçtərəfli saziş imzalanmışdır (10). Bu sənəddə əvvəllər tərəflər arasında bağlanmış ikitərəfli sazişlər bir daha təsdiqlənmişdir. Düzdür, “Xəzər dənizinin hüquqi statusu haqqında” Konvensiyaya əsasən, Xəzər dənizinin dibinin və təkinin sektorlara bölünməsi, beynəlxalq hüququn prinsip və normaları nəzərə alınmaqla yanaşı və qarşı-qarşıya yerləşən dövlətlər arasında razılaşmalar yolu ilə onların dibin təkindən istifadəsi, dibin və təkin resurslarının mənimsənilməsi ilə bağlı digər qanunauyğun təsərrüfat-iqtisadi fəaliyyətinə olan suveren hüquqların həyata keçirilməsi məqsədilə yerinə yetirilməsi nəzərdə tutulur.

Beləliklə, Azərbaycan Respublikası Mərkəzi Asiya regionuna daxil olan Qazaxıstan Respublikası və Türkmənistan Respublikası ilə Xəzər dənizinin dibi üzrə həmsərhəddir və Xəzər dənizinin dibi və təki Azərbaycanın Qazaxıstan Respublikası və Türkmənistan Respublikası ilə həmsərhəd sahələri xətti üzrə bu dövlətlər arasında bağlanan beynəlxalq müqavilə və sazişlər əsasında bölünəcək. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan və Türkmənistan arasında 21 yanvar 2021-ci ildə birgə memorandum imzalamaqla Xəzər dənizində “Dostluq” adlandırılmış karbohidrogen yatağının birgə istismar edilməsinə dair razılığa gəlmişlər (18).

Qloballaşma dövründə bütün dünya regionları bir-biri ilə sıx əlaqədar və bir çox hallarda bir-birindən bu və ya digər dərəcədə asılıdır. Buna görə Mərkəzi Asiya regionunda baş verən iqtisadi və siyasi hadisələr, bu bütövlükdə bu regionda gedən proseslər, o cümlədən Mərkəzi Asiya regionunda təhlükəsizliyə təhdid kimi narkotik vasitələrin qaçaqmalçılığı və ticarətinə qarşı mübarizə problemi (2, s.216-223), regionda təhlükəsizliyin təmin edilməsi, terrorizmlə, separatizmlə, ekstremizmlə və s. mübarizə üzrə problemlər daxil olmaqla Azərbaycan üçün də artıq dərəcədə əhəmiyyətli və vacibdir.

### 1. Postsovet Mərkəzi Asiya regionu ölkələrini Azərbaycan ilə əlaqələndirən əsas amillər

Nəzərə almaq lazımdır ki, 70 ildən çox bir müddət ərzində bizim ölkə və bir sıra Mərkəzi Asiya ölkələri müttəfiq respublikalar statusunda vahid bir federativ dövlətin - Sovet İttifaqının tərkibinə daxil idilər və bu dövlət çərçivəsində onların arasında müxtəlif iqtisadiyyat, rabitə, nəqliyyat, mədəniyyət və digər sahələrdə sıx əlaqələr qurulmuşdu və müəyyən müddət ərzində biz bir dövlət çərçivəsində ümumi tarixə və mədəniyyətə malik idik.

Onu da qeyd etmək lazımdır ki, Mərkəzi Asiyanın, demək olar ki, bütün ölkələri ya türkdillidir (Tacikistan Respublikası istisna olmaqla), ya da onların ərazisində türkdilli əhali çoxluq təşkil edir (İran, Çin Xalq Respublikasının qərb rayonları, yəni Sincan - Uyğur Muxtar rayonu) və bu ölkələrlə bizim ölkə ümumi tarixi, dil, mədəni, dini köklərə, xüsusən, SSRİ tərkibində olmuş Qazaxıstan və Orta Asiya ölkələri ilə daha sıx əlaqələrə malikdir. Bu əlaqələrin möhkəmləndirilməsi üçün hətta 3 oktyabr 2009-cu ildə müasir türk dövlətlərini birləşdirən və əsas məqsədi onlar arasında hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması haqqında Naxçıvan sazişi imzalanmışdır (4). Bu beynəlxalq təşkilata Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan daxildir. Özbəkistan bu təşkilata üzv olmaq üçün 12 sentyabr 2019-cu ildə rəsmi müraciət etmişdir. Həmçinin türk dünyası ilə tarixi əlaqələri olan Macarıstan bu təşkilatda müşahidəçi statusuna malikdir. Naxçıvan sazişi struktur cəhətdən preambula və 23 maddədən ibarətdir. Bu sənəd Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2009-cu ilin noyabrında

ratifikasiya edilmişdir (5). Sənədin preambulasında bu ölkələrin xalqlarının tarixi əlaqələrinin, dilinin, mədəniyyətinin və ənənələrinin ümumiliyi qeyd edilir. Həmçinin xalqlarının hərtərəfli əməkdaşlığının daha da dərinləşdirilməsinə, siyasi çoxqütblülük, iqtisadi və informasiya qloballaşması proseslərinin inkişafı şəraitində sülhün möhkəmləndirilməsinə, regionda və ümumilikdə dünyada təhlükəsizliyin və sabitliyin təmin olunmasında birgə töhfə vermək istəyi də xüsusi olaraq vurğulanır. Bundan əlavə, tərəflərin fikrincə, ümumi bir struktur çərçivəsində onların qarşılıqlı fəaliyyəti, dövlətlər və xalqlar arasında qonşuluq, birlik və əməkdaşlığın böyük potensialının açılmasına kömək edir. İndiyə kimi TDƏŞ-in 7 rəsmi sammiti keçirilmişdir. VII Sammit Azərbaycan, Türkiyə, Qırğızıstan, Özbəkistan prezidentləri, Qazaxıstanın birinci prezidenti və Macarıstanın Baş Nazirinin iştirakı ilə 2019-cu ilin oktyabrında Bakıda keçirilmişdir (12). Həmçinin 10 aprel 2020-ci ildə isə Azərbaycanın təşəbbüsü ilə koronavirus pandemiyasına qarşı mübarizə aparılması ilə əlaqədar fövqəladə sammit keçirilmişdir (9). TDƏŞ-in çərçivəsində bu quruma daxil olan ölkələrin bir sıra məsələlər üzrə birgə fəaliyyəti onların bütövlükdə (o cümlədən Azərbaycanın) dünya və regional siyasətdə çəkisini əhəmiyyətli dərəcədə artırır.

**2. Postsovet Mərkəzi Asiya regionu ölkələrinin Azərbaycan ilə əməkdaşlığının inkişafı istiqamətləri**

Postsovet Mərkəzi Asiya ölkələri və Azərbaycan Respublikası arasında hal-hazırda müxtəlif layihələr çərçivəsində müxtəlif əlaqələr, o cümlədən iqtisadi əlaqələr sürətlə inkişaf etməkdədir. Çindən başlayaraq Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək daha sonra müxtəlif Qərbi və Şimalı Avropa ölkələrinədək gedib çıxan İpək yolunun bərpası (Qərb-Şərq nəqliyyat dəhlizi) və ya Fars körfəzi ölkələrinə aparan (Şimal-Cənub nəqliyyat dəhlizi) proqramlar çərçivəsində nəqliyyat dəhlizlərinin qurulması kimi infrastruktur layihələr dünya əhəmiyyətli layihələrdir. Artıq həyata keçirilmiş belə dünya əhəmiyyətli layihələrdən biri üç qonşu ölkənin ərazisindən keçən Bakı-Tbilisi-Qars dəmiryoludur. Onu həm də "Dəmir ipək yolu" kimi adlandırırlar. Bakı-Tbilisi-Qars dəmiryolu Azərbaycanın, Gürcüstanın və Türkiyənin dəmir yollarını birləşdirən nəqliyyat dəhlizidir. Bu dəhliz vasitəsilə Asiya və Avropa birləşdirilir. Avropa İttifaqı Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını təqdir etmiş və onu Avropa İttifaqını Türkiyə, Azərbaycan, Gürcüstan və Mərkəzi Asiya ölkələri ilə birləşdirən nəqliyyat birləşmələrinin əsas ünsürü adlandırmışdır (16). Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılışı 30 oktyabr 2017-ci ildə Azərbaycanın Ələt şəhərində, birinci sınaq qatarının yola salınmasından sonra baş vermişdir. Bu açılışda Azərbaycanın, Gürcüstanın, Türkiyənin rəsmi nümayəndələri ilə birlikdə Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın, Özbəkistanın və Tacikistanın da rəsmi nümayəndələri iştirak etmişlər. Bir sıra Mərkəzi Asiya ölkələri bu layihədə özlərinin maraqlı olduqlarını bəyan etmişlər. Belə ki, Özbəkistan Respublikasının prezidenti Ş.Mirziyoyev özünün imzaladığı fərmanla 2018-2022-ci illəri əhatə edən dövrə aid Özbəkistan Respublikasının nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə və həmçinin yüklərin daşınması üzrə xarici ticarət marşrutlarının diversifikasiyasına dair kompleks proqramını təsdiq etmişdir. Bu proqrama "Dəniz limanlarına çıxışı ilə Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu marşrutu üzrə xarici ticarət yüklərinin pilot tranzit daşımalarının həyata keçirilməsi" adlı tədbir daxil edilmişdir. Bu tədbirin həyata keçirilməsi cədvəlinə müvafiq olaraq, yüklərin ilk daşımaları 2018-ci ilin birinci kvartalında başlanmışdır. Bu proqram həmçinin özbək tərəfi üçün Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa İttifaqı ölkələri vahid nəqliyyat dəhlizinin formalaşmasında iştirakını nəzərdə tutur. O cümlədən, Özbəkistan Respublikasının müvafiq nazirlikləri və şirkətləri bu dəhlizin iştirakçısı olan digər ölkələrlə birgə hökumətlərarası komissiyaların iclasları çərçivəsində nəzərdə tutulan daşımaların həcmlərini müəyyən etməyi planlaşdırır (13). Artıq Qərb-Şərq (TransXəzər Beynəlxalq Nəqliyyat Marşrutu) nəqliyyat dəhlizi üzrə təkcə 2019-cu ildə 8,7 mln. ton yük daşınmışdır. Bu nəqliyyat dəhlizi üzrə Çindən Türkiyəyə və daha sonra Avropa İttifaqına və əks istiqamətdə yük daşımalarını həyata keçirilir. 2020-ci ilin təkcə ilk 3 ayında isə bu rəqəm 3 mln. tonu keçmişdir. 2020-ci ilin yanvar-iyul aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin (TRASEKA) Azərbaycan hissəsi üzrə daşınmış yüklərin həcmi 24,4 milyon ton, yük dövriyyəsi isə 5 milyard 550,1 milyon ton/kilometr olub.

Bu yüklərin 13 milyon 956,8 min tonu və ya 57% avtomobil nəqliyyatı, 7,5 milyon tonu və ya 30,8% dəmir yolu nəqliyyatı, 2,9 milyon tonu və ya 12,2% dəniz nəqliyyatı ilə daşınıb. TRASEKA proqramı üzrə Azərbaycan hissəsi üzrə daşınan yüklərin həcmi 2021-ci ilin yanvar-fevral aylarında 6,636 mln. tona çatmışdır (19).

44 günlük II Qarabağ müharibəsinin yekunları üzrə Zəngəzur nəqliyyat dəhlizinin açılması Asiyadan, o cümlədən Mərkəzi Asiya regionuna daxil olan ölkələrin ərazilərindən istifadə olunaraq yüklərin bu nəqliyyat dəhlizilə daşınması iqtisadi cəhətdən böyük mənfəətlərin əldə edilməsinə və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin daha da dərinləşməsinə imkan yaradır.

Azərbaycan Mərkəzi Asiya regionunun iqtisadi cəhətdən ən çox inkişaf etmiş ölkələrindən birisi olan Qazaxıstan ilə əlaqələri də sıxdır. Xüsusilə 2005-ci ildə iki ölkə arasında bağlanmış "Strateji tərəfdaşlıq və müttəfiq münasibətlər haqqında" Müqaviləni qeyd etmək olar. Bununla yanaşı həm siyasi, həm də iqtisadi əhəmiyyətə malik olan 2006-cı ilin iyun ayında Bakı-Tbilisi-Ceyhan neft borusu vasitəsilə Xəzər dənizi və Azərbaycanın ərazisi üzərindən Qazaxıstan neftinin nəql edilməsinə kömək edilməsi və dəstək verilməsi Müqaviləsini qeyd etmək lazımdır. Bu isə Qazaxıstana öz neftini Avropaya, o cümlədən Azərbaycan vasitəsilə nəql edilməsinə imkan yaratmışdır. Ümumilikdə, iki ölkə arasında ticarət dövriyyəsi hər il artmaqda davam edir və dövriyyənin həcmi 2018-ci ilin yekunlarına görə, 220 mln. ABŞ dollarını keçmişdir. Azərbaycanın bu regionun ölkələri ilə qarşılıqlı əlaqələrini möhkəmləndirməsinin əyani sübutu kimi, həm də 2017-ci ilin aprelində Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin bizim ölkəyə rəsmi səfərini göstərmək olar. Bu səfər zamanı iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin möhkəmləndirilməsinə, əmtəə dövriyyəsinin artmasına və hər iki dövlətin nəqliyyat-tranzit sisteminin potensialının istifadəsinə yönəlmiş ikitərəfli müqavilələr paketi imzalanmışdır.

Həmçinin Mərkəzi Asiya regionuna daxil olan digər ölkələrin - 2017-ci ilin avqustunda və 2020-ci ilin mart ayında Türkmənistan Respublikasının prezidenti Qurbanqulu Berdimuxamedovun və 2018-ci ilin avqustunda Tacikistan Respublikasının prezidenti İmomali Raxmonun, 2019-cu ildə Özbəkistan Respublikasının prezidenti Ş. Mirziyoyevin, Qırğızıstan Respublikasının prezidenti S. Jeenbekovun da Azərbaycana rəsmi səfərini göstərmək olar. Bu səfərlər zamanı bir sıra önəmli layihələr hazırlanmışdır.

Digər bir əhəmiyyətli layihəni də göstərmək olar. Bu, Azərbaycanı və Türkmənistanı birləşdirən Xəzər dənizinin dibi ilə çəkilməsi nəzərdə tutulan optik tel rabitə xəttinin birgə tikilməsi və istifadə edilməsi layihəsidir. Belə magistral kabel xəttinin çəkilişi Azərbaycan üzərindən keçən və Avropanı Asiya ilə birləşdirən Rəqəmli İpək Yolunu formalaşdıracaq. Bu layihə Asiya və Avropa arasında rabitə telekommunikasiya körpülərinin təkmilləşdirilməsində iki ölkə arasında əməkdaşlığı möhkəmləndirəcək. Bu layihəyə görə, Xəzər dənizinin dibi boyunca Türkmənistan-Azərbaycan istiqamətində bir fiber-optik rabitə xəttinin (FOCL) ortaq tikintisi, sahibliyi və istifadəsi nəzərdə tutulur (14). Bu telekommunikasiya xətti üzrə internet trafikinin Avropanın mərkəzlərindən Azərbaycan vasitəsilə Türkmənistana və daha sonra Özbəkistana, Əfqanıstana, Pakistana və Hindistana ötürülməsinə imkan yaranacaq. Beləliklə, belə bir magistral kabel xəttinin çəkilişi Avropa və Cənubi Asiya arasında internet trafikinin ötürülməsində Azərbaycanı mərkəzi ölkəyə çevirəcək və rəqəmli telekommunikasiya dəhlizini yaradaraq Asiya və Avropa arasında telekommunikasiya rabitə körpülərini təkmilləşdirə bilər.

Xüsusilə vurğulamaq lazımdır ki, potensial təhlükələrin mənbəyi kimi, postsovet Mərkəzi Asiya regionunda neqativ proseslərin inkişafı Cənubi Qafqaz regionu ölkələrinə bütövlükdə və ilk növbədə, Azərbaycana özünün müəyyən təsirini göstərməyə bilməz.

Bütün bu göstərilən problemlərin tədqiq edilməsi bu regionda müxtəlif proseslərin inkişafının proqnozlaşdırılması cəhdləri və bu region ölkələri ilə qarşılıqlı əlaqələrdə bizim ölkənin davranış modelinin konkret strategiyasının tərtib edilməsi məqsədilə böyük elmi əhəmiyyətə malikdir.

Onu da qeyd etmək zəruridir ki, SSRİ-nin parçalanmasından və Mərkəzi Asiya regionu ərazisində bir sıra müstəqil postsovet dövlətlərinin yaranmasından sonra bu region müasir beynəlxalq münasibətlər sistemində vacib əhəmiyyət kəsb etməyə başlamışdır. Şübhəsiz ki, bu regionda Rusi-

ya, ABŞ, Çin kimi fövqəldövlətlər özlərinin strateji maraqlarına malikdir. Son dövrlərdə bu regiona Aİ-nin marağının artmasını da müşahidə etmək olar. Belə ki, 2007-ci ildə Avropa İttifaqı Şurası "Avropa İttifaqı və Mərkəzi Asiya: yeni tərəfdaşlığın strategiyası (The EU and Central Asia: Strategy for New Partnership)" adlı sənədi qəbul etmişdir. Sənəddə Mərkəzi Asiya regionuna aid bu qurumun üzv dövlətləri üçün ümumi strateji xarici siyasət xətti öz əksini tapmışdır. Bundan əlavə, Avropa İttifaqı bu regionun bir sıra ölkələri ilə (məsələn Qazaxıstan, Qırğızıstan və Tacikistanla) tərəfdaşlıq və əməkdaşlıq haqqında ikitərəfli sazişlər imzalayıb (15, s.39-40). Hətta 21 dekabr 2015-ci ildə Avropa İttifaqı Qazaxıstanla "Genişləndirilmiş tərəfdaşlıq və əməkdaşlıq haqqında" saziş imzalamışdır. Bu, Avropa İttifaqı və Mərkəzi Asiya ölkələri arasında imzalanmış belə növ birinci sənəddir və Avropa İttifaqının Qazaxıstanla münasibətlərini keyfiyyətcə yeni səviyyəyə qaldırır. Avropa İttifaqının bütün ölkələri və Avropa İttifaqı parlamenti tərəfindən ratifikasiya edilməsindən sonra bu Saziş 1996-cı ildə imzalanmış və 1999-cu ildən qüvvəyə minmiş "Tərəfdaşlıq və əməkdaşlıq haqqında" sazişi əvəz edəcəkdir. Halbuki yeni sənədin müvəqqəti tətbiq edilməsi artıq 1 may 2016-cı ildən başlanmışdır. Müasir çoxqütblü dünyanın əsas aktorlarından olan bu ölkə və qurumların marağı postsovet Mərkəzi Asiya regionunda təhlükəsizlik probleminin həlli zərurəti ilə birbaşa bağlıdır.

**Nəticə**

Postsovet Mərkəzi Asiyanın geosiyasi və geostrateji mövqeyi, onun təbii sərvətlərlə zəngin olması bu regionu dünyanın vacib və əhəmiyyətli məkanına çevirmişdir. Regionun əsas xüsusiyyəti buraya daxil olan dövlətlərin müstəqillik əldə etməsindən sonra hələ də formalaşmaqda olmasındadır. Bu səbəbdən dünyanın aparıcı qütblərinə daxil olan dövlətlərin siyasəti bir sıra məsələlərdə, demək olar ki, tam bərqərar olmayıb. Postsovet Mərkəzi Asiya dövlətləri bu regionu dünya geosiyasi koordinatlar sistemində əsas regionlardan birinə çevirərək Mərkəzi Asiyanın strateji statusunu və geosiyasi formatını müəyyənləşdirir.

Azərbaycan üçün Mərkəzi Asiya regionu böyük əhəmiyyət təşkil edir. Belə ki, bir sıra dünya əhəmiyyətli layihələr Azərbaycanı və postsovet Mərkəzi Asiya regionunu və bu regiona daxil olan ölkələri bir-birilə sıx bağlayır, tərəflər üçün çox faydalı və əlverişli şərait yaradır. Bununla bərabər, bütövlükdə postsovet Mərkəzi Asiya regionu həm də özünə qonşu olan digər regionlarda baş verən müəyyən neqativ proseslərin inkişafı yolunda bufer, sərhəd kimi çıxış edir. Belə ki, Əfqanıstanda indiyədək vətəndaş müharibəsi davam edir, bu isə nəinki postsovet Mərkəzi Asiyada, bütövlükdə bütün Mərkəzi Asiya regionu və ona həmsərhəd olan digər regionlara aid təhlükəsizliyə qarşı ciddi təhdid mənbəyi ola bilər.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu: (Elektron resurs)/E-QANUN. URL: http://www.e-qanun.az/framework/1587.

2. Qarayev, R.M. Mərkəzi Asiya regionunda təhlükəsizliyə təhdid kimi narkotik vasitələrlə qaçaqmalçılığa və ticarətə qarşı mübarizə problemi // - Bakı: Şərq Araşdırmaları, 2019, № 1. – с. 216–223.

3. "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu: (Elektron resurs) / E-QANUN.
URL: http://e-qanun.gov.az/framework/41551.

4. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında: (Elektron resurs)/TÜRKLİB AZ. 3 oktyabr 2009. URL: http://www.turklib.az/r2.html.

5. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında» Naxçıvan Sazişi təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu: (Elektron resurs)/TÜRKLİB AZ. 26 noyabr 2009. URL: http://www.turklib.az/tdes.html.

6. Подписана конвенция о правовом статусе Каспийского моря: (Электронный ресурс)/РИА Новости. 12.08.2018. URL: https://ria.ru/20180812/1526398222.html.

7. Протокол к Соглашению между Российской Федерацией и Республикой Казахстан «О разграничении дна северной части Каспийского моря ы целях осуществления суверенных прав на недропользование» от 6 июля 1998 г. (Дата подписания 13.05.2002): (Электронный ресурс) / URL: http://www.mid.ru/foreign_policy/international_contracts/2_contract/-/storage-viewer/bilateral/page-176/46360

8. Протокол о внесении изменения в Протокол к соглашению между Российской Федерацией и Республикой Казахстан «О разграничении дна северной части Каспийского моря ы целях осуществления суверенных прав на недропользование» от 6 июля 1998 г.: (Электронный ресурс) /
URL: http://www.mid.ru/foreign_policy/international_contracts/2_contract/-/storage-viewer/ bilateral/ page-31/43818.

9. Саммит Тюркского совета проходит в формате видеоконференции: (Электронный ресурс) /REPORT информационное агентство. 10 апреля 2020.
URL: https://report.az/ru/vneshnyaya-politika/vneocherednoy-sammit-tyurkskogo-soveta-proydet-v-formate-videokonferenci/

10. Соглашение между Российской Федерацией, Азербайджанской Республикой и Республикой Казахстан о точке стыка линий разграничения сопредельных участков дна Каспийского моря от 14 мая 2003 года // - М.: Бюллетень международных договоров, 2013. № 2.

11. Соглашение между Российской Федерацией и Азербайджанской Республикой о разграничении сопредельных участков дна Каспийского моря // - М.: Бюллетень международных договоров, 2004. № 8.

12. Тюркский совет доказал, что является опорой для сохранения мира в регионе: (Электронный ресурс) / 1news.az. 16 октября 2019. URL: https://1news.az/news/tyurkskiy-sovet-dokazal-chto-yavlyaetsya-oporoy-dlya-sohraneniya-mira-v-regione.

13. Узбекистан в 2018 году запустит перевозки по ж/д Баку - Тбилиси – Карс: (Электронный ресурс) / SPUTNIK Азербайджан 07.12. 2017 // URL: https://ru.sputniknews-uz.com/economy/20171207/7019613/Uzbekistan-v-2018-godu-zapustit-perevozki-po-zhd-Baku-Tbilisi-Kars.html.

14. Азербайджан и Туркменистан обсудили прокладку кабеля по дну Каспия // haqqin.az. 23 мая 2020. https://haqqin.az/news/178987

15. Эминов, Э.М. Соглашения о Партнерстве и Сотрудничестве в системе правового регулирования экономических связей ЕС с постсоветскими странами // - Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013. № 3 (35). - s. 39-40.

16. EU Statement on opening of the Baku-Tbilisi-Kars railway: (Electronic resource) / Delegation of the European Union to Azerbaijan. Bruxelles, 30.10.2017.
URL: https://eeas.europa.eu/delegations/azerbaijan/34825/node/34825_vi

17. Qarayev, R.M. “Orta Asiya” və “Mərkəzi Asiya” anlayışlarının nisbəti (nəzəri və praktiki aspektlər) // - Bakı: Şərq Araşdırmaları, 2020. № 2. – s. 65 – 75.

18. Панниер, Б. 30 лет препираний и угроз. Туркменистан и Азербайджан урегулировали спор в Каспийском море: (Электронный ресурс) / Центральная Азия. 24 января 2021. URL: https://rus.azattyq.org/a/analysis-turkmenistan-azerbaijan-resolve-a-30-year-dispute-over-caspian-field-/31066187.html.

19. В TRACECA назвали причины роста грузоперевозок по азербайджанскому участку транспортного коридора: (Электронный ресурс) / Trend. Az. 24 апреля 2021. URL: https://www.trend.az/business/transport/3414049.html?utm_source=informers&utm_medium=170x600&utm_campaign=informers.

***РЕЗЮМЕ***

***Рауф Караев***

***Постсоветский Центрально-Азиатский регион и Азербайджан***

***Ключевые слова:*** *Центральная Азия, Азербайджан, регион, сотрудничество, коридор, выгода, безопасность*

Постсоветская Центральная Азия является одним из граничащих с Азербайджаном регионов. В статье автор исследует основные факторы, определяющие значимость региона постсоветской Центральной Азии для Азербайджана, как в сфере политики, включая и вопросы безопасности, так и экономики. Автор приходит к заключению, что данный регион представляет собой ключевое звено в системе построения сети коммуникационных, интеграционных и транспортных связей между Европой и регионом Центральной Азии, Китаем, а также другими странами Юго-Восточной Азии.

***SUMMARY***

***Rauf Garayev***

***Azerbaijan and Post-Soviet Central Asia region***

***Keywords:*** *Central Asia, Azerbaijan, cooperation, corridor, benefit, security*

Post-Soviet Central Asia is one of the regions bordering Azerbaijan. In the article, the author examines the main factors that determine the significance of the post-Soviet Central Asia region for Azerbaijan, including in the field of politics, security issues, and economics. The author concludes that this region is a key link in the system of building a network of communication, integration and transport links between Europe and the region of Central Asia, China, as well as other countries of Southeast Asia.